# ALİM ÖMRÜNÜN SALNAMƏSİ

**Ayrı-ayrı elm adamlarının, görkəmli mədəniyyət xadimlərinin həyat və yaradıcılığını əks etdirən, onların gərgin əməyinin bəhrəsi olan kitablarını, dövri mətbuat səhifələrində, beynəlxalq konfrans və konqreslərin toplularında dərc olunan əsərlərini bir yerə toplayıb, oxuculara çatdırmaq "iynə ilə gor qazmaq" kimi çətin, məsuliyyətli, lakin şərəfli bir iş biblioqraf və kitabxanaçıların üzərinə düşür. Belə ki, biblioqrafik göstəricilərin hər bir nəşri alimlərimizə, mədəniyyət xadimlərinə əvəzsiz töhfədir.**

Belə töhfələrdən biri də bu günlərdə işıq üzü görən "Arif Şəfaət oğlu Mehdiyev. Biblioqrafiya" kitabıdır. Tərtibçi-müəllifləri filolofiya elmləri doktoru Aybəniz Əliyeva-Kəngərli və istedadlı jurnalist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü İsmət Səfərov olan bu kitab Azərbaycan elminin görkəmli nümayəndəsi, AMEA-nın və Beynəlxalq Mühəndislik Akademiyasının, Rusiya Mühəndislik Akademiyasının həqiqi üzvü, Amerika Aeronavtika və Astronavtika İnstitutunun üzvü, "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilmiş Arif Mehdiyevin həyat və yaradıcılığı haqqında gözəl vəsaitdir.

Akademik Arif Mehdiyev 2004-cü ildə Azərbaycan elmi qarşısında xidmətlərinə görə akademik Yusif Məmmədəliyev adına medalla təltif edilmişdir. Lakin bir çox qiymətli təltifləri haqqında indiyədək heç bir mətbuat orqanlarında, informasiya məkanında rast gəlmək mümkün deyildi. 1983-cü il dekabrın 14-də xalq təsərrüfatında qazandığı uğurlara görə SSRİ XTHS-nin bürünc, daha sonra gümüş və qızıl medalları ilə, Uçuşu İdarəetmə Mərkəzinin Xatirə nişanı ilə, Kosmik tədqiqatların yerinə yetirilməsində və Sovet kosmonavtikasının qarşısında xidmətlərinə görə Böyük Qızıl medalla, 2011-ci il BMA-nın "Mühəndislik şöhrəti" medalı ilə, 2013-cü ilin sentyabrında Belarus-Azərbaycan layihələrinin həyata keçirilməsində şəxsi xidmətlərinə görə Belarus Prezidenti Aleksandr Lukaşenkonun fərmanı ilə "Fransisk Skorina" medalı ilə və 2015-ci ildə aprelin 20-də BMT-nin İctimai Təltiflər Şurasının qərarı ilə "Şahanə xidmətlərinə görə" ordeni ilə təltif olunmuşdur. Kitabda onun 19 təltifinin fotoşəkilləri öz əksini tapmışdır.

Dövlət mükafatı laureatı, akademik Arif Mehdiyevin əsərlərinin biblioqrafik göstəricisi 1960-2014-cü illərdə Azərbaycan, rus və xarici dillərdə nəşr edilmiş monoqrafiya, elmi sessiya, simpozium və konfrans materiallarında, dövri mətbuat səhifələrində dərc olunmuş məqalələri əhatə edir. Kitaba daxil edilmiş "Arif Şəfaət oğlu Mehdiyevin həyatı, elmi-pedaqoji və təçkilatçılıq fəaliyyəti haqqında qısa oçerk" Azərbaycan, rus və ingilis dillərində oxuculara çatdırılmışdır. Oçerkin müəllifləri AMEA-nın prezidenti, akademik Akif Əlizadə və mərhum vitse-prezident, akademik Akif Hacıyevdir. Bundan başqa kitabda akademik Arif Mehdiyev haqqında akademik Arif Paşayevin "Yüksək meyarlar insanı", AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəylinin "Şəxsiyyətin bütövlüyü və məsuliyyət", AMEA-nın müxbir üzvü Vəli Hüseynovun "Humanistliyin və müdrikliyin zirvəsində dayanan elm və dövlət xadimi", professor Namiq Hacıyevin "Akademik A.Ş.Mehdiyev" adlı yazıları böyük maraq doğurur.

Biblioqrafik göstəricinin "Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri akademik Arif Mehdiyev haqqında" adlanan bölmədə də akademiklərdən Mahmud Kərimovun, Budaq Budaqovun, Hacıbəy Sultanovun, Arif Həsənovun, professorlardan Arif Quliyevin, Azad Abbaszadənin, Teymur Əhmədovun, Aydın Abdullayevin və başqalarının ürək sözləri öz əksini tapıb.

Akademik Akif Əlizadə yazır ki, sadə, təvazökar bir insan, istedadlı alim, akademik Arif Şəfaət oğlu Mehdiyev kosmik tədqiqatlar sahəsində sayılıb-seçilən alimlərdəndir. O, mənalı ömrünü bütövlükdə elmin bu sahəsinə həsr etmiş, neçə-neçə alim yetişdirmiş və elmi mərkəzini yaratmışdır. Bütün bu uğurların qazanılmasında Arif müəllimin şəxsi keyfiyyətləri ilə yanaşı, onun Azərbaycanın görkəmli neftçi-alimi, akademik Şəfaət Mehdiyevin varisi olması, onun kimi bir şəxsiyyətdən tərbiyə alması böyük rol oynamışdır.

Akademik Mahmud Kərimovun ürək sözlərində oxuyuruq ki, Arif Mehdiyevin tükənməz enerjisi və düşüncə dairəsi kosmik elm və texnologiyalar sahəsində fəaliyyət göstərən beynəlxalq strukturlara Azərbaycanın inteqrasiyası üçün əlverişli şərait yaratmışdır. Alimin yüksək intellekti, öz vətəninə hədsiz sədaqəti kosmik tədqiqatlar sferasındakı ən nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycanın tanınmasına imkan vermişdir.

Görkəmli alim Hacıbəy Sultanov deyib ki, Arif müəllim öz şəxsi mənafeyini ictimai mənafedən önə çəkməyən nadir insanlardandır. O, əsl insana, əsl alimə, əsl təşkilatçı və idarə rəhbərinə məxsus bütün gözəl keyfiyyətlərə malikdir.

Kitabda verilmiş Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin "Mehdiyevin namizədliyini (Ali Attestasiya Komissiyasının sədri vəzifəsinə) şəxsən özüm seçmişəm" sözləri çox qiymətlidir. Ulu öndər akademik A.Ş.Mehdiyevə böyük etimad göstərərək, 2002-ci ildə onu Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə çox məsuliyyətli bir dövlət postuna—Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri vəzifəsinə təyin etmişdi.

Kitabda "Əsərlərinin biblioqrafiyası", "İxtiralar, patentlər", "Arif Mehdiyevin redaktoru olduğu əsərlər və nəşrlər", "Dissertasiyalara elmi rəhbərlik və məsləhətçi", "Həyatı, elmi-təşkilati, ictimai fəaliyyəti və əsərləri haqqında ədəbiyyat" bölmələri geniş işıqlandırılmışdır. Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə alimin əsərlərinin, müştərək müəlliflərin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri də tərtib edilərək, öz əksini kitabda tapmışdır.

Kitabın müəlliflərindən biri olan Aybəniz xanımın bu sahədə danılmaz xidmətləri vardır. O, təkcə "Azərbaycan elm və mədəniyyət xadimləri" seriyalarından olan biblioqrafiyaların hazırlanmasında deyil, həmçinin fundamental mövzu göstəricilərindən — "Heydər Əliyev və Azərbaycan elmi", "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi-biblioqrafik göstəricisi,




"Müasir elmin informasiya təminatı və kitabxanalar", "Milli-mənəvi dəyərlərimiz: yaradanlar və yaşadanlar", "Müstəqilliyimizə gedən yol: Azərbaycan Xalq Cümhuriyyəti" və başqalarını misal göstərə bilərik.

Kitabın digər müəllifi isə ixtisasca peşəkar jurnalist olan İsmət Səfərov 1960-cı illərdə filologiya elmləri doktoru, professor Nazim Axundovun başçılıq etdiyi Akademiyanın Mərkəzi Elmi Kitabxanasında biblioqraf peşəsinə yiyələnmiş, ilk sanballı işi "Azərbaycan ədəbiyyatşünaslığı biblioqrafiyası"nın redaktoru olması ilə başlanmışdır. Sonralar onun müəllifliyi və redaktorluğu altında akademiklərdən Mirəli Qaşqay, Musa Əliyev, Həsən Əliyev, Mirzə İbrahimov, Heydər Hüseynov, Zərifə Əliyeva, Yusif Məmmədəliyev, Teymur Bünyadov, AMEA-nın müxbir üzvlərindən Heydər Əfəndiyev, Xudu Məmmədov, Cəfər Qiyasi, Aqil Əliyev, Səlahəddin Xəlilov və başqaları haqqında kitablar işıq üzü görmüşdür.

Adları çəkilən müəlliflərin son yaradıcılıq məhsulu olan "Arif Şəfaət oğlu Mehdiyev. Biblioqrafiya" kitabı (Bakı: "Nurlar", 2015) heç şübhəsiz, oxucularda, elm adamlarında, həmçinin professional biblioqraflarda öz orijinallığı ilə böyük maraq doğuracaqdır.

**Arzu MƏMMƏDOVA,**
**ADİU Əsaslı Kitabxanasının baş biblioqrafı.**